

## *MƏQSƏD CANQAZİYEV*

(МАКСАТ ЖАНГАЗИЕВ) –

*1992-ci ildə Toktoqul elində doğulub.*
*2015-ci ildə Qırğız Milli Universitetini bitirib.*
*Çingiz Aytmatov ad. Gənclər ödülünə layiq görülüb.*
*"Ürək səsi" adlı kitabı gün üzü görüb.*
*Uluslararası "Nur borbor" Yaradıcı Gənclər Akademiyasının üzvüdür.*

## *FƏRQ...*
### *(Uşaqlıq haqqında)*

Ürəklər görmədi, görmədi bəlkə,
düşüncəylə necə qanadlanardıq;
Çimdik qopardı yaşlılarımız,
ağrımız keçincə, yenə oynardıq.
Ah!
İndisə həyat özü
çimdikləyir ürəyimdən,
Ağrısı indiyədək keçmədi...
Dəyişib canlanır sonralarımız
İndikindən fərqli idi öncələr...
götürüb atardıq bir-birimizi...
Oyunda yıxılınca
ağrımazdı canımız,
indi
fələk
vursa
ayağımızdan,
düşmədən dayanmaq asan deyildir.
Gizlənqaç oynardıq uşaqlıqda biz,
"tez tərpən, yaxşıca gizlən" deyərdik.

Gözüm bağlı olsa da, tapmaq çətin deyildi,
kimin harda olduğunu, duyurdum, elə bil ki!
İndi dörd gözlə belə axtarıb-arasam da,
dostlarımı tapa bilmirəm amma...

Ondakı hekayə qapandı bu gün.
Qapandı neyçün?..

Sonu bitməz deyə gözləmişdik hey…
Bəlkə də,
çətin yoldan keçdik, bilmirəm,
Ancaq hekayədəki
qəhrəman güclü idi,
Həyat indi bizə ağ-qara gəlir,
Halbuki
bir vaxtlar rəngliydi dünya…

## *BU YAZDA*

Vüqarlı buludlar tökər göz yaşlarını,
Su damar təzə bitən otlardan, çiçəklərdən;
Yox, bu yaz çox fərqlidir əvvəlinci yazlardan –
Yol gözlədən, çox gözlədən, gec gələn…
Yarpaqlar da aynadır… yerdə yatır aynalar,
Yaşıl otlar boy atır göyə doğru,
Körpələrə görə bu yaz fəslində,
Kiminə görəsə son fəsildir bu…
Bu yazda da səslənir arılar və bülbüllər…
güllər nazla oynayar…
Bir ürəkdə həsrət çalınar, həsrət…
Bir ürəkdə eşq şərqisi oxunar.
Yenidən cana gələr sevdalanmış ağaclar,
Budaqları meyvədən dolub-dolub, sallanar.
Bu yaz vaxtı da sevib yenə kimsə kimisə,
Bu yazda sevinəcək ürəklər çiçək-çiçək.
Diləklər öz üzünü məzarlara tutarsa,
Kimlərinsə yenə də, yeri göynəyər, durar…
Zamanı və şərabı birgə dadıb, udaraq,
Kimlərsə on səkkizə qədəm basar bu yazda…

***

Büdrədim, yıxıldım bir neçə dəfə,
gücsüz gəlmək istəmədim meydana
həm də,
canım özü-özündən alovlanıb, yanarkən,
sevib-sevilərək mən, həyat eşqiylə doldum.
Yanımda aydın sabah bircə dəfə doğsa da,
aldandım dəfələrcə,
gəncliyimdən götürdüm,
Dünyam daralıb mənim, ürəyim parçalansa,
İnsanları sevərək, işıq tərəfə qaçdım.
Sınıqları zirvədən aşağı atsalar da,
qırılmadım mən əsla,
qalxıb, yenə yarışdım,
Yıxılmaqla daha da gücləndim,
bir də qalxdım,
Aldandığım həyatdan yeni təcrübə aldım...

## *HƏKİMƏ*

Yerindəmi ürəyimin vuruşu?
Bir baxışdan canım ağrıyar, dinməz...
Əgər məndə hər şey yolundadırsa,
Həkim, düşün o vaxt: ürək nə istər?
Bəzən bir təsəlliyə açılar çiçəyimiz.
İnkar edə bilmərəm, çəkdiyiniz zəhməti
Sapsağlam olsun deyə belə dərdli ürəyə
Cərrahmı bıçağını işə salacaq, yoxsa?
Qırılan kəmiyə çarə var, əlbət,
Bilirəm, həkimsiz, çox şey bilirsiz,
Lütf edin, söyləyin: sözdən yaralı,
ürək qırıqlığı sağalacaqmı?..

(Çevirən: **Ümid NƏCCARİ**)